# Yeni il

## Bağçada yolka şənliyi

Bum qəsəbə uşaq bağçasında ənənəvi olaraq keçirilən yeni il şənliyi bu il də yüksək səviyyədə qeyd olunmuşdur.



Yolka ətrafına toplaşmış körpə fidanlar Şaxta babanı alqışlarla qarşılamışlar. Balacalar mahnılar oxumuş, şeirlər söyləmiş, Şaxta baba ilə birlikdə rəqs etmişlər.

Bağçanın müdiri Rahilə Sədirova, tərbiyəçi Nərgiz Məmmədova toplantı iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə ürəkdən təbrik etmişlər.

Şənlikdə valideynlər də iştirak etmişlər.

Bayram şənliyində Şaxta baba uşaqlara hədiyyə vermiş, onların yeni ilini təbrik etmişdir.

Yüksək səviyyədə keçən şənlik balacaların xatirəsində silinməz iz burxmışdır.

**Ədilə ƏDİLOVA,**
**bağçanın musiqi tərbiyəçisi.**

## Dünyanın ən hündür yolkası

İtaliyada dünyanın ən hündür yolkası öz işıqlarını yandırıb.

Bu ölkənin Qubbio şəhərində Yeni il yolkası işıqlarının yandırılması mərasimi keçirilib.

Şəhərin ətrafındakı İncino dağının ətəyində quraşdırılan hündürlüyü 750 metr, eni 450 metr olan Yeni il yolkasında rəngarəng işıqlandırma sistemi mövcuddur. Belə ki, həmin sistemdə 700-dən çox elektrik kabeli ilə birləşdirilən neon lampalarından istifadə olunub.



Yolkanın zirvəsində hər beş dəqiqədən bir rəngini dəyişən Yeni il ulduzu var. Neon lampaları olan yolka Qubbio şəhərində artıq 38 ildir quraşdırılır. Onu ilk dəfə könüllülər qurublar. Qubbionun "Yeni il gözəlini" dünyanın ən böyük yolkası kimi 1991-ci ildə Ginnesin Rekordlar Kitabına daxil ediblər. 2014-cü ildə isə onun işıqlarını Roma Papası Fransisk yandırıb. Yolkanın rəngarəng işıqları yanvarın sonuna qədər şəhər sakinlərinin və qonaqların zövqünü oxşayacaq.

Qeyd olunur ki, Yeni ilin rəmzi bütün dünyadan turistləri də Qubbio şəhərinə cəlb edir. Yolkanın qurulması mərasimi gecənin qaranlıq səmasını parlaq işıqlara qərq edən atəşfəşanlıqla müşayiət olunur. Bu il mərasim iştirakçılarına öz doğma adamına həsr etdiyi ulduzu seçmək təklif olunub. Əldə olunan gəlir isə "Save The Children" fondunun hesabına köçürüləcək.

Dünyanın ən bahalı Yeni il yolkası isə İspaniyada qurulub. Onun üzərinə asılan "Chanel" və "Louis Vuitton" oyuncaqlarının qiymətinin bir neçə milyon avro olduğu bildirilir.

# Yeni il lətifələri

31 Dekabr. Oğul anasına yaxınlaşır və deyir:

- Ana gəl 12-nin yarısı qışqıraq Yeni İl Yeni İl

Anası təəccüblə soruşur:

-Niyə oğlum?

- Qoy qonşular elə bilsin ki. yeni il birinci bizə gəlib.

* * *

Şaxta baba bir neçə evdə olduqdan sonra növbəti evə gəlir və deyir:

-Oğlum sən Şaxta babadan nə istəyirsən?

Oğlan heçnə demədən Şaxta babaya bir təpik vurur.

Şaxta Baba "niyə vurdun" deyə soruşur.

- Bu keçən il üçündü.

* * *

Uşaq qışqıraraq deyir:

- Şaxta baba mən yeni ildə maşın istəyirəm

Anası:

- Oğlum bərk qışqırma Şaxta baba ən asta səsi belə eşidir

Uşaq:

- Amma atam eşitmir.

* * *



Yeni il axşamında süfrə başında birdən çəngəl yerə düşür, lakin kişi çəngəli yerə dəymədən tutur:

- Şükür. Yoxsa yenə qonaq gələcəkdi.

Elə bu vaxt kiçik qızı içəri daxil olur və deyir:

- Ata, ata xala liftdə qaldı.

* * *

Yeni il. Əsgər:

- Bu Şaxta baba hər şeyi səhv saldı.

-Niyə?

- Uşaq olanda ondan əsgər forması istədim. O isə indi gətirdi.

* * *

Yeni il ərəfəsində. Poçta bir məktub gəlir. Məktub Şaxta babaya ünvanlanıb.

-Salam Şaxta baba. Mən Məmmədəm. Mən yeni ili çox sevirəm. Amma hava soyuqdur, mən də çıxıb qartopu oynaya bilmirəm. Çünki şubam, papağım əlçəyim, ayaqqabım yoxdur. Poçt işçiləri yığışıb uşağa hər şey alırlar bir əlcəyə pul çatmır. Qərara alıb əlçəksiz göndərirlər. Bir neçə müddət sonra yeni məktub gəlir:

–Çox sağ ol, Şaxta baba. Amma əlçək yox idi. Yəqin poçta oğurlayıblar.

## Daha bir ilin sonuna gəldik...

Yeni ilin yaxınlaşması nə qədər sevindirici olsa da, insanları kədərləndirən məqamlar da var. İlin sonu yaxınlaşan kimi, bu bir il ərzində qarşımıza qoyduğumuz məqsədləri, gerçəkləşdirə bildiyimiz və bilmədiyimiz planlarımızı xatırlayırıq. Əgər kimsə bir il ərzində çox şey qazanıbsa, planları daha çox reallaşıbsa, özünə güvən hissi üstünlük təşkil edir və il sonunda sanki dərindən nəfəs alır, yeni ili daha sevinclə qarşılayır. Geriyə dönüb baxarkən özüylə qürur duyan insan yeni ildən yeni ümidlər gözləyir.

Amma geriyə baxarkən yarımçıq qalmış işlər, həyata keçməmiş arzular görən insan özünün bacarıqsız biri olduğunu düşünür, çarəsizlik, ümidsizlik kimi duyğular yaşayır.

Hətta bir il daha yaşlandığını, heç cür geri qaytarılması mümkün olmayan bir ili itirdiyini düşünən insanlar da var. Bu insanlar depressiv vəziyyətə düşür, ancaq keçmiş günlərlə yaşayırlar.

Bir şeyi unutmamalıyıq ki, yeni illə köhnə il sadəcə olaraq saatlarla bir-birindən ayrılır. Əgər uzun müddət köhnə ilin yasını tutsaq, yeni ilin də necə gəlib-necə getdiyindən xəbərimiz olmaz. Yarımçıq qalmış bütün işləri yeni ildə də davam etdirmək mümkündür.

Ümumiyyətlə, zaman Eynşteynin sübut etdiyi kimi, sadəcə, bir xülyadır. Arzularınıza çatmaq, hədəflərinizi gerçəkləşdirmək üçün zamana ehtiyacınız yoxdur. Siz yalnız arzuladıqlarınızın tezliyinə köklənin.

Hədəf seçərkən onun imkanlarınıza, həyat şəraitinizə uyğun olmasına da diqqət edin ki, gerçəkləşməyən planlarınız sizi məyus etməsin. Yarımçıq qalan işləri yeni ildə də davam etdirə bilərsiniz. Yetər ki, dinamik olun, ruhdan düşməyin.Bunun üçün düşüncələrinizə diqqət edin!



**Qış mənzərəsi**
**Foto-etüd**